Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 93 (8116) ÇƏRŞƏNBƏ AXŞAMI, 30 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Bakı möhtəşəm idman yarışmasını uğurla başa vurdu



Aprelin 28-də Bakıda “Formula-1” üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-prisinin əsas yarışı keçirilib. Əvvəlcə pilotların paradı və açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Formula-1” üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-prisinin əsas yarışına baxıblar.

“Formula-1” Azərbaycan Qran-prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılış mərasimi maraqlı anları ilə yadda qaldı.

Paradda və himn mərasimində pilotları azyaşlılar müşayiət etdilər. “Formula-1” şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının “Gələcəyin ulduzları” adlı birgə təşəbbüsü çərçivəsində qəbul etdiyi qərara əsasən, ötənilki mövsümdən etibarən həm parad, həm də himn mərasimlərində pilotlar azyaşlılar tərəfindən müşayiət olunurlar.

Əvvəlcə builki yarış üçün xüsusi tərtib olunmuş kubok təqdim edildi.

Açılış mərasiminə Azərbaycan Respublikasının Dövlət himninin ifası ilə start verildi.



Dövlət himni tanınmış bəstəkar Azad Vəliyevin yeni aranjimanında səsləndirildi. Himni Azərbaycanın əməkdar artistləri Bəyimxanım Vəliyeva və Nurlan Növrəsli birlikdə, müvafiq olaraq, muğam və klassik üslublarda ifa etdilər. Onları əməkdar artistlər - tarda Şəhriyar İmanov, nağarada Kamran Kərimov, violonçeldə Emin Qaliyev və bəm nağarada Hüsaməddin Əzizov müşayiət etdilər.

Dövlət himninin ifa olunmasından sonra “Formula-1” Azərbaycan Qran-prisinin 51 dövrədən ibarət əsas yarışı başladı.

Final mərhələsində hər birində iki pilot olan on komanda mübarizə aparıdı. Ötən gün keçirilən sıralama yürüşünün nəticəsinə əsasən, start xəttinə ən yaxın məsafədə “Mercedes” komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas, “Ferrari” komandasının pilotu Sebastian Fettel dayandılar.

Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Gərgin idman mübarizəsinin yekununda “Mercedes” komandasının pilotu Valtteri Bottas “Formula-1” SOCAR Azərbaycan Qran-prisinin qalibi adını qazandı. O, 51 dövrəni hamıdan tez - 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vurdu.

Ardı 2-ci səh.

# Azərbaycan - Xorvatiya əməkdaşlığı genişlənir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Xorvatiya Respublikası Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Xorvatiyaya səfərini məmnunluqla xatırlayaraq orada aparılan danışıqların və müzakirələrin səmərəli olduğunu qeyd etdi və bu səfərin ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq, əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı Mariya Buriçin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin möhkəmlənməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Xanım Mariya Buriç, ilk növbədə, Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin salamlarını dövlətimizin başçısına çatdırdı. Mariya Buriç Prezident İlham Əliyevin Xorvatiyaya səfərinin çox uğurlu keçdiyini və səfər zamanı əlaqələrimizin daha da möhkəmlənməsi baxımından məhsuldar müzakirələrin aparıldığını qeyd etdi. O, səfəri çərçivəsində Xorvatiyanın Azərbaycandakı səfirliyinin rəsmi açılışında iştirak edəcəyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Xorvatiyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

# *Emilio MONZO:* “İlham Əliyev Argentinada böyük nüfuza malikdir”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Argentinanın bir sıra sahələrdə əməkdaşlıq həyata keçirdiklərini deyən Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin rolunu qeyd etdi. Dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı. Qəbula görə minnətdarlığını bildirən Emilio Monzo Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevin Azərbaycanın hüdudlarından kənarda, o cümlədən Argentinada böyük nüfuza malik olduğunu dedi və dövlətimizin başçısının siyasəti nəticəsində Azərbaycanın digər ölkələrlə yaxşı dostluq münasibətləri qurduğunu məmnunluqla qeyd etdi. Emilio Monzo ölkəsinin Azərbaycanla əlaqələrin hərtərəfli inkişaf etdirilməsində maraqlı olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Argentina arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, iqtisadi, ticarət, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd edildi.

Dövlətimizin başçısı Argentina Respublikasının Prezidenti Maurisio Makrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Argentina Prezidentinə çatdırmağı xahiş etdi.

# Vladimir Putin İlham Əliyevin təşəbbüsünü təqdir etdi

Prezident İlham Əliyevin Çin səfərinin ən maraqlı məqamlarından biri də Pekində Rusiya Prezidenti Vladimir Putinlə keçirdiyi görüş oldu. “Bir kəmər, bir yol” Beynəlxalq Forumunda iştirak edən iki liderin bu görüşü bir daha Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verdi.



Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaradıb. Bunun nəticəsidir ki, ildən-ilə yüksələn xətt üzrə inkişaf edən dövlətlərarası münasibətlər hazırda strateji səviyyəyə qədər yüksəlib. Təkcə 2018-ci il ərzində iki dövlətin prezidenti 6 dəfə görüşüb. Azərbaycan Prezidenti Rusiyaya üç dəfə səfər edib, Rusiya Prezidenti isə IX Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak etmək üçün ölkəmizə gəlib. İlham Əliyevlə Vladimir Putin arasında ayrı-ayrı ölkələrdə keçirilən tədbirlər çərçivəsində də görüşlər keçirilib.

Ardı 4-cü səh.




# Azərbaycan “Bir kəmər, bir yol” layihəsinin cazibə mərkəzinə çevrilib

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev aprelin 24-də Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Pekində keçirilən “Bir kəmər, bir yol” II Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak etmişdir.

Si Cinpin tədbirdən əvvəl dövlətimizin başçısı ilə görüşərək ölkəmizin layihəyə dəstək verdiyi üçün minnətdarlığını bildirmiş, bu sahədə görülən işləri yüksək qiymətləndirərək qeyd etmişdir ki, Azərbaycan böyük İpək yolu üzərində yerləşir və bu yolun bərpasında görülən işlərdən məmnundur.

Çin tərəfinin ölkəmizə verdiyi yüksək qiymət təsadüfi deyil. “Bir kəmər, bir yol” layihəsinə Azərbaycan tərəfindən lazım olan siyasi və logistik dəstək verilib.

Ardı 4-cü səh.

# İçərişəhər dövlət səviyyəsində qorunur və lazımi qayğı göstərilir

*Mehriban ƏLİYEVA:* “İçərişəhər bütün Azərbaycan üçün, bizim bütün vətəndaşlarımız üçün çox doğma və əziz yerdir”



Bakının tarixini özündə yaşadan İçərişəhər bu gün də insanlar tərəfindən sevilən, yerli tarixi abidə kimi qorunan və diqqətdə olan məkanlardan biridir.

Təsadüfi deyil ki, Şirvan-Abşeron memarlıq məktəbinin ən məşhur nümunəsi sayılan İçərişəhərin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi özlüyündə xalqımız üçün böyük qürurverici bir faktdır. Qədim Bakının keçmişini, bakılıların məişətini, milli-mədəni arxitektura nümunələrini özündə yaşadan bu əraziyə istər ictimaiyyət nümayəndələri, tarixçilər, tədqiqatçılar, istərsə də Azərbaycan dövləti həmişə xüsusi qayğı nümayiş etdirir. Elə bu günlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın İçərişəhərdə olması, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunda görülən işlərlə yaxından tanış olması deyilənlərə bariz nümunədir.

Ardı 4-cü səh.

# Bakı möhtəşəm idman yarışmasını uğurla başa vurdu








*Əvvəli 1-ci səh.*

Ondan 1,524 saniyə geri qalan komanda yoldaşı, ötənilki Bakı Qran-prisinin qalibi Luis Hamilton ikinci oldu. İlk üçlüyü liderə 11,739 saniyəlik fərqlə uduzan "Ferrari" komandasının sürücüsü Sebastian Fettel tamamladı.

"Mercedes" komandası bu qələbə ilə "Formula-1" üzrə dünya çempionatları tarixində yeni rekorda imza atdı. Belə ki, ilk dəfə olaraq ardıcıl dörd Qran-pridə bir komandanın hər iki pilotu yürüşləri ilk iki pillədə başa vurdu.

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq Finlandiyanın və Almaniyanın Dövlət himnləri səsləndirildi.

Qran-prinin qalibi Valtteri Bottasa kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi.

Dövlət başçısı Konstruktorlar kubokunu "Mercedes" komandasının nümayəndəsinə təqdim etdi.

İkinci yerin sahibi, "Mercedes"in sürücüsü Luis Hamiltona kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan "Ferrari" komandasının sürücüsü Sebastian Fettelə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.

Beləliklə, "Formula-1" üzrə dünya çempionatının dördüncü







mərhələsindən - Azərbaycan Qran-prisindən sonra pilotların mübarizəsinə 87 xalla "Mercedes"in sürücüsü Valtteri Bottas liderlik edir. Komanda yoldaşı Luis Hamilton ondan 1 xal geri qalır. "Ferrari" komandasının almaniyalı pilotu Sebastian Fettel 52 xalla üçüncü, "Red Bull Racing Honda"nın hollandiyalı pilotu Maks Ferstappen 51 xalla dördüncü, "Ferrari"nin Monakodan olan sürücüsü Şarl Lekler isə 47 xalla beşinci pillədə qərarlaşıblar. Konstruktorların yarışında isə "Mercedes" komandası 173 xalla birinci sıradadır. İkinci yerdə qərarlaşan "Ferrari" komandasının 99, üçüncü pillədəki "Red Bull Racing Honda"nın 64 xalı var.

Builki Bakı yarışı "Formula-1" idmanı tarixində sayca 1001-ci Qran-pridir. Çində təşkil olunan "Formula-1" üzrə 1000-ci Qran-pridə qələbə qazanan Luis Hamilton iki yubiley Qran-prisinin qalibi olan ilk pilot kimi tarixə düşüb. Belə ki, o, 2014-cü ildə Bəhreyndə təşkil olunan 900-cü Qran-pridə də qələbə qazanıb.

Bakıda "Formula-1" Azərbaycan Qran-prisinə aprelin 26-da start verilib. Yarışın birinci günündə pilotlar Bakı trekində iki sərbəst yürüşdə güclərini sınayıblar. Ötən gün keçirilmiş sıralama yürüşündən sonra isə Qran-pridə pilotların düzülüşü müəyyənləşib. "Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində Bakıda "Formula-2" yarışları da keçirilib.

Xatırladaq ki, "Formula-1" yarışı Azərbaycanda dördüncü ildir təşkil olunur. 2016-cı ildə keçirilən birinci yarışda - "Formula-1" Avropa Qran-prisində "Mercedes" komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəlib. 2017-ci ildə təşkil olunan "Formula-1" Azərbaycan Qran-prisi "Red Bull Racing Honda" komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıb. Ötənilki Qran-pridə isə "Mercedes" komandasının britaniyalı sürücüsü Luis Hamilton qələbə qazanıb.

# "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 460; 2001, № 1, maddə 25, № 6, maddə 362; 2002, № 5, maddə 241; 2006, № 3, maddə 225; 2007, № 5, maddə 401; 2008, № 5, maddə 348; 2010, № 4, maddə 276; 2015, № 4, maddə 355, № 11, maddə 1260; 2017, № 3, maddə 332, № 5, maddə 736; 2018, № 4, maddə 652, № 12, I kitab, maddə 2529; 2019, № 1, maddə 28) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddənin 2-ci hissəsinin dördüncü abzasında "fiziki və hüquqi şəxslərə" sözləri "müəssisəyə və fərdi borcluya" sözləri ilə əvəz edilsin.

2. 3-cü maddənin "a", "b", "c" bəndləri aşağıdakı redaksiyada verilsin:

a) borclu həyata və ya sağlamlığa vurulmuş zərərin ödənilməsi, alimentin tutulması, əmək və onunla bağlı münasibətlərindən yaranan öhdəliklər üzrə, müəlliflik müqaviləsinə görə ödənilən haqlar ilə bağlı kreditorlar qarşısında öhdəliklərini icra müddəti başladığı andan etibarən ardıcıl 2 (iki) ay ərzində tam icra etməmişdir;

b) borclu vergilər (faizlər və tətbiq edilmiş maliyyə sanksiyaları) və başqa dövlət ödənişlərini onların hesablandığı gündən etibarən ardıcıl 10 (on) ay ərzində tam icra etməmişdir;

c) borclu digər kreditorlar qarşısında öhdəliklərini onun icrası üçün müəyyənləşdirilmiş müddətdə icra etməmişdir.".

3. 9-cu maddə üzrə:

3.1. 1-ci hissənin birinci cümləsi çıxarılsın və ikinci cümlədə "Elanda" sözü "İflas haqqında iş üzrə məhkəmə baxışı barədə elanda" sözləri ilə əvəz edilsin;

3.2. 2-ci hissədə "maddənin 1-ci bəndinə" sözlərindən sonra "və bu Qanunun 10-1-ci maddəsinə" sözləri əlavə edilsin;

3.3. 3-cü hissə ləğv edilsin;

3.4. 4-cü hissənin birinci cümləsində "nəzərdə tutulmuş elan mətbuatda ilk dəfə dərc edilməzdən" sözləri "və bu Qanunun 10-1-ci maddəsində nəzərdə tutulmuş qaydada elanın dərc edilməsindən" sözləri ilə əvəz edilsin.

4. 10-cu maddənin 1-ci hissəsinin birinci cümləsində "sonra" sözündən sonra "və bu Qanunun 10-1-ci maddəsində müəyyən edilmiş qaydada qərar elan edilənədək" sözləri əlavə edilsin.

5. Aşağıdakı məzmunda 10-1-ci maddə əlavə edilsin:

"Maddə 10-1. İflas haqqında iş üzrə məhkəmə baxışı

İflas haqqında iş üzrə ərizəyə məhkəmə, daxil olduğu gündən 1 (bir) ay müddətində baxır və həmin işin həllinə dair müvafiq qərar çıxarır. Çıxarılan qərardan şikayət verildiyi halda, həmin şikayətə sonrakı instansiya məhkəmələrində ərizənin daxil olduğu gündən 1 (bir) ay müddətində baxılır və həmin işin həllinə dair müvafiq qərar çıxarılır. İşdə iştirak edən şəxslər məhkəmə iclası barədə həmin iclasa ən azı 5 (beş) iş günü qalmış xəbərdar edilməlidirlər. Ərizəçi eyni zamanda məhkəmə baxışının tarixinə 5 (beş) iş günü qalanadək həmin məhkəmə baxışı haqqında müvafiq icra hakimiyyəti orqanının rəsmi internet səhifəsində və rəsmi dövri mətbu nəşrdə elan dərc etdirməlidir.".

6. 12-ci maddənin məzmunu aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunun 10-1-ci maddəsində nəzərdə tutulmuş qaydada iflas haqqında iş üzrə məhkəmənin müvafiq qərarından şikayətin verilməsi borclunun əmlakının satışının və kreditorlara ödənişlərin dayandırılmasına səbəb olur.".

7. 14-cü maddənin birinci hissəsinin üçüncü cümləsində "qanuni qüvvəyə minməsi tarixi" sözləri "qəbul edildiyi tarix" sözləri ilə əvəz edilsin.

8. 20-ci maddənin 4-cü hissəsinin "d" bəndi ləğv edilsin.

9. 28-ci maddənin 3-cü hissəsində "3 aylıq fasilə ilə və ya məhkəmənin müəyyən etdiyi başqa qaydada" sözləri "2 (iki) aylıq fasilə ilə və ya məhkəmənin müəyyən etdiyi daha qısa müddətdə" sözləri ilə əvəz edilsin.

10. 37-ci maddənin 2-ci hissəsinin ikinci cümləsində "qanunvericilikdə nəzərdə tutulmuş müddətdə" sözləri "10 (on) gün müddətində" sözləri ilə əvəz edilsin.

11. 41-ci maddənin 7-ci hissəsinin ikinci cümləsində "mövcud vəziyyətə uyğun olan" sözləri "bu Qanunun 10-1-ci maddəsində müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

12. 41-1-ci maddə üzrə:

12.1. 1-ci hissənin ikinci cümləsində "üç ay" sözləri "2 (iki) ay" sözləri ilə əvəz edilsin;

12.2. 5-ci hissəyə aşağıdakı məzmunda dördüncü və beşinci cümlələr əlavə edilsin:

"Hər bir kreditorlar qrupu daxilində səsvermədə yalnız sağlamlaşdırma planının qəbulu nəticəsində hüquqlarına təsir göstərən kreditorlar iştirak edir. Kreditorlar qrupu daxilində sağlamlaşdırma planının əleyhinə səs vermiş, yaxud səsvermədə iştirak etməmiş kreditorların hüquqları sağlamlaşdırma planının lehinə səs vermiş kreditorların hüquqları ilə bərabər, növbəlilik qaydasında təmin edilir.";

12.3. aşağıdakı məzmunda 12-ci və 13-cü hissələr əlavə edilsin:

"12. Sağlamlaşdırma planının təsdiqinə dair işə məhkəmə tərəfindən bu Qanunun 10-1-ci maddəsində müəyyən edilmiş qaydada baxılır.

13. Sağlamlaşdırma planının təsdiqinə dair məhkəmə qərarında aşağıdakılar göstərilir:

a) borclunun adı, onun olduğu yer, bank hesabları haqqında məlumatlar, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, müdirinin soyadı, adı, atasının adı, əlaqə nömrəsi;

b) sağlamlaşdırma planının təsdiqi;

c) sağlamlaşdırma prosesinin müddəti;

ç) sağlamlaşdırma prosesində iştirak edən kreditorların siyahısı;

d) sağlamlaşdırma planına daxil edilmiş eyni növdən olan kreditorlar qrupunun (qruplarının) tələblərinin həcmi;

e) sağlamlaşdırma planının təsdiq edilməsinin bu Qanunun 41-2-ci maddəsində nəzərdə tutulan nəticələri;

ə) sağlamlaşdırma planının icrası ilə bağlı hesabatın təqdim edilməsi müddəti.".

13. 45-ci maddə üzrə:

13.1. 3-cü hissənin ikinci cümləsindən "ən azı" sözləri çıxarılsın;

13.2. 4-cü hissədə "baxılma müddətini təyin edir və bu barədə" sözləri "10 (on) gün müddətində baxır və iclasın tarixi ilə bağlı" sözləri ilə əvəz edilsin.

14. 46-cı maddə üzrə:

14.1. 2-ci hissənin ikinci cümləsində "Məhkəmə:" sözü "İşə 5 (beş) iş günü müddətində baxaraq, məhkəmə:" sözləri ilə əvəz edilsin;

14.2. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Məhkəmə bu maddənin 2-ci hissəsinin "c" bəndində nəzərdə tutulan qərarı qəbul etdikdə əmlak inzibatçısı dəyişikliklər edilmiş borc tələblərinin reyestrini məhkəməyə 7 (yeddi) gün müddətində təqdim etməlidir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2019-cu il*

## “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1569-VQD nömrəli Qanununun tətbiqi və “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 23 iyun tarixli 604 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1569-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1569-VQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 23 iyun tarixli 604 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 461; 2001, № 10, maddə 640; 2006, № 7, maddə 590; 2010, № 7, maddə 610; 2018, № 9, maddə 1823) 2-ci hissəsinin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

“həmin Qanunun 10-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.”.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2019-cu il*

## “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq ölkə əhalisinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida təhlükəsizliyi sisteminin səmərəliliyinin və şəffaflığının artırılması, onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Dövlət Proqramında qeyd olunan tədbirlərin, beynəlxalq təcrübə nəzərə alınmaqla, əsas icra indikatorlarını üç ay müddətində müəyyən etsin;

2.3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.

4. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2019-cu il*

*Sərəncama edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## “Nə? Harada? Nə zaman?” Televiziya Klubu Komandası üzvlərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan gəncliyini beynəlxalq intellektual oyunlarda layiqincə təmsil etdiklərinə görə “Nə? Harada? Nə zaman?” Televiziya Klubu Komandasının aşağıdakı üzvləri “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Qasımov Balakişi Ələkbər oğlu
Talıbov Elman Eldar oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2019-cu il*

## *Prezident İlham ƏLİYEV:* “Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq”




Mən tam əminəm ki, hər bir ölkənin inkişafı üçün demokratiya xüsusi rol oynayır. Ölkə iqtisadi cəhətdən, o cümlədən təbii resurslarla zəngin ola bilər, lakin cəmiyyətdə gözəl ab-hava, azadlıqlar yoxdursa, bu inkişaf yarımçıq ola bilər və ya dayanıqlı olmaya bilər. Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq. Bu da hesab edirəm ki, çox düzgün və düşünülmüş siyasətdir. Əgər demokratiya baxımından inkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, onların mütləq əksəriyyəti iqtisadi cəhətdən də inkişaf etmiş ölkələrdir. Yəni, maddi rifah, iqtisadi inkişaf, sosial inkişaf demokratik inkişaf üçün əsas şərtdir.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 81-ci kitabında yer alan bu fikirləri dövlət başçısı Milli Mətbuat Günü münasibətilə jurnalistlər üçün tikilmiş növbəti binada mənzillərin paylanması mərasimində söylədiyi nitqində səsləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu kitabındakı materiallar 2017-ci ilin iyun-avqust aylarını əhatə edir.

Kitabda dövlət başçısının Polşa və Latviyaya rəsmi, Türkiyə və Rusiyaya işgüzar səfərləri zamanı, həmçinin Türkmənistan Prezidentinin Azərbaycana səfəri zamanı bu ölkələrin rəhbərləri ilə danışıqlarına, imzalanan sənədlərə, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanıb.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu çoxcildliyin 81-ci kitabında Prezident İlham Əliyevin Avstriya, ABŞ, Türkmənistan, Özbəkistan və digər dövlətlərin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallarla da tanış ola bilər.

Kitabda dövlət başçısının Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, həmçinin Qaxda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində nitqlərinin mətnləri, Balakən, Zaqatala, Göygöl, Samux, Gədəbəy və Şəmkir rayonlarına səfərləri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşlərinə, bölgələrdə və paytaxtda iqtisadi, nəqliyyat, sosial infrastruktur layihələrinin açılışında iştirakına və çıxışlarına dair materiallar daxil edilib.

Nəşrdə Prezident İlham Əliyevin 2017-ci ilin iyun-avqust aylarında müxtəlif ölkələrin dövlət başçılarına məktublarının mətnləri də yer alıb.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 81-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## *Mariya BURİÇ:* “Xorvatiya Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminindəki strateji rolunu yüksək qiymətləndirir”



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov aprelin 29-da Xorvatiya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Azərbaycan ilə Xorvatiya arasında bütün istiqamətləri əhatə edən çox yaxşı münasibətlərin olduğunu bildirib, bu əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə yüksələn xətlə inkişaf etdiyini söyləyib. “Azərbaycan ilə Xorvatiya arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Hesab edirəm ki, əlaqələrimizin bu səviyyəyə yüksəlməsində dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri mühüm rol oynayıb. Əminəm ki, sizin də Azərbaycana səfəriniz, apardığınız səmərəli danışıqlar əlaqələrimizin daha da genişləndirilməsinə öz töhfəsini verəcək”, - deyə Novruz Məmmədov vurğulayıb.

Azərbaycan-Xorvatiya əlaqələrinin inkişafı baxımından hökumətlərarası komissiyanın fəaliyyətinin önəmini vurğulayan Baş nazir ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiklərini diqqətə çatdırıb. Novruz Məmmədov bildirib ki, Xorvatiyanın Azərbaycanda səfirliyinin açılması ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyətli olacaq.

Azərbaycan ilə Xorvatiya arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edən Baş nazir deyib ki, xanım Mariya Buriçin ölkəmizə səfəri çərçivəsində növbəti Azərbaycan-Xorvatiya biznes forumunun keçirilməsi də bu sahədə əlaqələrin inkişafına xidmət edəcək.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminindəki strateji rolunun ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirən xanım Mariya Buriç Xorvatiyanın “Cənub qaz dəhlizi” layihəsində iştirak etməkdə maraqlı olduğunu vurğulayıb.

Görüşdə informasiya texnologiyaları, kənd təsərrüfatı, əczaçılıq, idman, gəmiqayırma sahələrində əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Xorvatiya iş adamları Azərbaycandakı əlverişli biznes və investisiya mühitindən yararlanmağa dəvət edilib

### Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə aprelin 29-da Bakıda Azərbaycan-Xorvatiya biznes forumu keçirilib. Tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki tərəfdən iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 80-dən çox sahibkar iştirak edib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov Azərbaycan-Xorvatiya iqtisadi-ticarət əlaqələrinin inkişaf etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, indiyədək Azərbaycanla Xorvatiya arasında müxtəlif sahələrdə 22 sənəd imzalanıb. Azərbaycanda Xorvatiya şirkətləri uğurla fəaliyyət göstərir. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 16 faiz artaraq 250 milyon dollar təşkil edib. Azərbaycan iqtisadiyyatı, həyata keçirilən sistemli və ardıcıl iqtisadi islahatlar barədə məlumat verən R.Məmmədov beynəlxalq qurumların hesabatlarında ölkəmizin mövqeyinin davamlı olaraq yaxşılaşdığını, “Doing Business 2019” hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini diqqətə çatdırıb.

Nazir müavini keçirilən biznes forumun işgüzar dairələr arasında müzakirələrin aparılması, əməkdaşlığın perspektiv sahələrinin müəyyənləşdirilməsi baxımından əlverişli platforma olduğunu qeyd edib. O, Xorvatiya iş adamlarını Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən yararlanmağa, azərbaycanlı həmkarları ilə fəal əməkdaşlığa dəvət edib.

Xorvatiya Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriç Azərbaycana səfərindən məmnunluğunu bildirib, biznes forumda iş adamlarının fəal iştirakının qarşılıqlı əlaqələrin inkişafına marağın göstəricisi olduğunu, eyni zamanda, tədbirin əməkdaşlığın genişləndirilməsinə, yeni əlaqələrin qurulmasına töhfə verəcəyini qeyd edib. M.Buriç regionun önəmli ölkəsi olan Azərbaycanda Xorvatiya səfirliyinin açılmasının siyasi-iqtisadi əməkdaşlığın genişlənməsində əhəmiyyətini vurğulayıb.

Tədbirdə Azərbaycan ilə Xorvatiyanın biznes mühiti və investisiya imkanlarına dair təqdimatlar keçirilib.

## Azərbaycan-Argentina əlaqələri inkişaf edir



Aprelin 29-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzo ilə görüşüb.

Oqtay Əsədov son vaxtlar Azərbaycan-Argentina münasibətlərinin inkişaf etdiyini söyləyib. Bildirib ki, Azərbaycan ilə Argentina arasında siyasi əlaqələr yaxşı səviyyədədir. Bugünə kimi ölkələrimiz arasında 25 sənəd imzalanıb, 9 sənəd isə imzalanma ərəfəsindədir.

Sədr qeyd edib ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlıq da inkişaf edir. Lakin bu sahədə əlaqələr daha da genişləndirilməlidir. O, Azərbaycan-Argentina biznes-forumunu xatırladaraq bu cür tədbirlərin sayının artırılmasının zəruriliyini qeyd edib.

Görüşdə turizm sahəsində əlaqələrin inkişafının zəruriliyi də vurğulanıb.

Oqtay Əsədov deyib ki, Azərbaycan-Argentina parlamentlərarası əlaqələri yaxşı səviyyədədir. Hər iki parlamentdə dostluq qrupları fəaliyyət göstərir, qarşılıqlı səfərlər həyata keçirilir. O, Argentina Milli Konqresinin Deputatlar Palatasının sədrinin bu səfərinin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayacağına ümid etdiyini bildirib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açan sədr Argentinanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi üçün minnətdarlığını bildirib.

Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzo göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O deyib ki, əlaqələrimizin genişləndirilməsi üçün sahələrimiz çoxdur. Parlamentlərarası əlaqələrlə yanaşı, icra hakimiyyətləri səviyyəsində də əməkdaşlığı inkişaf etdirə bilərik.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***
***Foto Fərman BAĞIROVUNDUR***

## Azərbaycan və Xorvatiya strateji tərəfdaşlardır



Aprelin 29-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Xorvatiyanın Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Oqtay Əsədov Xorvatiyanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olduğunu deyib. Bildirib ki, gələn il Azərbaycan-Xorvatiya diplomatik əlaqələrinin qurulmasının 25 illiyi qeyd olunacaq. Bu illər ərzində əlaqələrimiz yüksək səviyyəyə gəlib çıxıb. Ölkələrimiz arasında münasibətlərin inkişafında dövlətlərimizin başçılarının böyük rolu var. 2013-cü ildə Azərbaycan və Xorvatiya prezidentləri ölkələrimiz arasında strateji tərəfdaşlıq və dostluq münasibətləri haqqında Zaqreb Bəyannaməsi imzalayıblar. Bu bəyannamə münasibətlərimizin yüksək səviyyədə olmasının bariz nümunəsidir.

Oqtay Əsədov, həmçinin qeyd edib ki, Azərbaycanla Xorvatiya arasında iqtisadi əlaqələr də yüksək səviyyədədir. Keçən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 250 milyon dollara yaxın olub.

Milli Məclisin Sədri bildirib ki, parlamentlərarası əlaqələr də yüksək səviyyədədir. Qarşılıqlı səfərlər həyata keçirilir. Biz beynəlxalq parlament təşkilatlarında çox vaxt bir mövqedən çıxış edirik.

Xanım Mariya Buriç deyib ki, Xorvatiya ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyəyə çatması üçün ölkəsi bütün tədbirləri görüb. Yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafına böyük töhfə verdiyini deyən Mariya Buriç bildirib ki, ölkələrimiz arasında Zaqreb Bəyannaməsinin imzalanmasından sonra siyasi, iqtisadi sahələrdə əlaqələr genişlənib. O, Azərbaycanda Xorvatiyanın səfirliyinin açılmasının əlaqələrimizin inkişafına töhfə verəcəyinə inandığını deyib.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***AZƏRTAC***
***Foto Fərman BAĞIROVUNDUR***

# Vladimir Putin İlham Əliyevin təşəbbüsünü təqdir etdi

*Əvvəli 1-ci səh.*

Bütün bu görüşlərin hər birində müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi, layihələrin və təşəbbüslərin həyata keçirilməsi müzakirə edilib, bir sıra mühüm sənədlər imzalanıb.

Təsadüfi deyil ki, Pekində söhbət zamanı dövlət başçıları mütəmadi olaraq keçirilən görüşlərin əhəmiyyətindən söz açıblar. Vladimir Putin həm fikir mübadiləsi aparmaq, həm mövqeləri müqayisə etmək, həm də birgə işi təshih etmək imkanı baxımından mütəmadi görüşlərin əhəmiyyətini qeyd edib. Prezident İlham Əliyev də görüşlərin münasibətlərin inkişafına çox ciddi təkan verdiyini qeyd edib: *"Bizim görüşlərimiz münasibətlərimizin inkişafına çox ciddi təkan verir. Biz müntəzəm olaraq görüşürük və əlbəttə ki, bütün sahələrdə əməkdaşlığın, qarşılıqlı fəaliyyətin çox mühüm məsələlərini həll edirik. Münasibətlərimizin inkişafından çox məmnunuq. Onlar bütün sahələri əhatə edir və fəal siyasi dialoq aparılır. Biz əmtəə dövriyyəsinin artmasını müşahidə edirik"*.

Məlum olduğu kimi, məhz iki ölkə rəhbərinin siyasi iradəsinin və əlaqələrin inkişafına verdikləri töhfələrin nəticəsidir ki, keçən il Azərbaycanla Rusiya arasında əmtəə dövriyyəsi 14 faiz artaraq 2,5 milyard dollara çatıb. Bu barədə danışan Vladimir Putin Prezident İlham Əliyevin təşəbbüsü ilə ticari-iqtisadi sahədə xüsusi qarşılıqlı fəaliyyət mexanizminin yaradılmasını yüksək qiymətləndirdi və yaxşı inkişaf etdiyini bildirdi.

Prezidentlərlə yanaşı, Azərbaycan və Rusiyanın ayrı-ayrı dövlət rəsmilərinin və iş adamlarının çoxsaylı səfərləri də qarşılıqlı əməkdaşlığa verilən böyük önəmin göstəricisidir. Azərbaycanla Rusiya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyası bu məsələdə önəmli rol oynayır. Rusiya-Azərbaycan İşgüzar Şurası da iki ölkə arasında iqtisadi və investisiya qoyuluşu sahəsində əlaqələrin, iş adamları arasında əməkdaşlığın daha da genişləndirilməsi məqsədlərinə xidmət edir.

Prezidentlərin Pekin görüşündə hökumətlərarası komissiyanın uğurla fəaliyyət göstərdiyi bildirildi və iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Görüşdə siyasi, iqtisadi, energetika, infrastruktur, investisiya, kənd təsərrüfatı, neft-qaz, nəqliyyat, sənaye, əczaçılıq, təhsil, mədəniyyət, humanitar sahələrdə əməkdaşlığın, o cümlədən "Şimal-Cənub nəqliyyat dəhlizi"nin inkişaf perspektivləri də müzakirə olundu.

Ümumiyyətlə, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və qeyri-neft məhsullarının ixracına görə birinci yeri tutur. Təkcə 2018-ci ildə, qeyd edildiyi kimi, yüksək artım nümayiş etdirib. Bu tendensiya 2019-cu ildə də davam edir. Hazırda qarşılıqlı ticarət əlaqələrinin daha da artırılması və şaxələndirilməsi üçün tədbirlər görülür.

İki ölkə arasında investisiya qoyuluşu sahəsində də faydalı əməkdaşlıq mövcuddur. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, xidmət, bank, sığorta, İKT, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə 700-ə yaxın Rusiya kapitallı müəssisə fəaliyyət göstərir. İndiyədək Rusiya tərəfi Azərbaycan iqtisadiyyatına 4,4 milyard dollar investisiya qoyub. Azərbaycanın Rusiyaya yatırdığı investisiyaların həcmi 1,2 milyard dollardan çoxdur. Ölkəmiz Rusiya ilə sənaye sahəsində əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verir. "SOCAR Polymer" layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın "KamAZ" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin reallaşdırılması qarşılıqlı investisiya qoyuluşu sahəsində önəmli layihələrdən sayılır.

Azərbaycan-Rusiya münasibətlərinin inkişafı baxımından maraqlı məqamlardan biri də ölkəmizin rusiyalı turistlərin diqqətini getdikcə daha çox çəkməsidir. Ümumiyyətlə, Azərbaycanda turizm potensialının hərəkətə gətirilməsi, yol-nəqliyyat və mehmanxana infrastrukturunun inkişaf etdirilməsi, Bakının beynəlxalq tədbirlər mərkəzinə çevrilməsi son illərdə ölkəmizə turist axınının sürətlə artmasına səbəb olub. Bu sırada əsas yerlərdən birini rusiyalı turistlər tutur. Təkcə keçən il rekord sayda - 900 minə yaxın rusiyalı Azərbaycana səfər edib. Bu, ilk növbədə onu göstərir ki, iki ölkə arasında münasibətlər ən yüksək səviyyədədir və rusiyalı turistlər Azərbaycanda özlərini rahat hiss edirlər.

Azərbaycan və Rusiya prezidentlərinin hər görüşü əlaqələrin genişlənməsinə xidmət edir. Bu baxımdan Pekin görüşü də dostluğa, mehriban qonşuluğa, qarşılıqlı dəstəyə və hörmətə əsaslanan münasibətlərin inkişafına mühüm təkan verəcək. Bu gün Azərbaycan Rusiyanın Cənubi Qafqazda ən mühüm siyasi-iqtisadi tərəfdaşıdır. Eyni zamanda Rusiya Azərbaycanın qeyri-neft ixracında birinci yeri tutur. Bütün bunlardan irəli gələrək iki dövlət arasındakı açıq və səmimi münasibətlər bundan sonra da inkişaf edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İçərişəhər dövlət səviyyəsində qorunur və lazımi qayğı göstərilir

**Mehriban ƏLİYEVA:** "İçərişəhər bütün Azərbaycan üçün, bizim bütün vətəndaşlarımız üçün çox doğma və əziz yerdir"

*Əvvəli 1-ci səh.*

Görüş zamanı Birinci vitse-prezident Mehriban xanım Əliyeva bildirdi ki, İçərişəhər Azərbaycan üçün, bizim bütün vətəndaşlarımız üçün çox doğma və əziz yerdir: "Bakımızın ürəyidir. Bu, doğrudan da çox dəyərli tarixi və mədəni abidədir. Yadımdadır, bir zamanlar İçərişəhər UNESCO-nun "qara siyahısı"na salınmışdı. Çünki burada bərpa işləri aparılmırdı. Bütün bu qanunlara zidd hərəkətlər olub. O zaman məhz Prezidentin göstərişi ilə İçərişəhərdə bir çox işlər, bərpa, yenidənqurma işləri aparıldı. Sakinlərin, sahibkarların məramları nəzərə alınaraq İçərişəhərin hər binasına, hər bir daşına dövlət tərəfindən böyük diqqətlə yanaşıldı. Novruz bayramında Prezidentlə bizim burada gəzintimiz oldu və sakinlərlə ünsiyyətdə olduq. Fəxr edirik ki, Bakımızın belə İçərişəhəri var. Əminəm ki, bu, hər bir azərbaycanlının ürəyində yaşayan bir hissdir. Təbii ki, Qala divarının heç bir daşına da ziyan vurmaq olmaz və heç zaman vurulmayacaq".

Bu tanışlıq zamanı bəzi mətbuat səhifələrində, sosial şəbəkələrdə İçərişəhərin qala divarlarının dağıdılması ilə bağlı ictimai rəydə narahatlıqlar yaradan informasiyaların da doğru olmadığı üzə çıxdı. Belə ki, bəzi araqarışdıranlar 1954-cü ildə dağılmış divarın rəsmlərini qəsdən indi qoyub və bugünkü hal kimi təqdim ediblər.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin sədri Əsgər Ələkbərov Birinci vitse-prezident Mehriban xanım Əliyevaya görülən işlərlə bağlı ətraflı məlumat verərkən bildirmişdir ki, dövlət başçısının fərman və sərəncamlarına əsasən, qoruq ərazisində tarix və mədəniyyət abidələrinin qorunması, memarlıq-estetik görünüşünün və uzunömürlülüyün təmin edilməsi üçün daim müvafiq tədbirlər həyata keçirilir. Hazırda idarə tərəfindən Kiçik Qala küçəsində, Qala divarları boyunca yerləşən kafe və restoranların yenidən qurulması işləri həyata keçirilir. Aparılan təmir-bərpa işləri Qoşa Qala divarlarına heç bir zərər vurmamaqla yanaşı, nə İçərişəhərin, nə də Qala divarlarının görünüşünə xələl gətirməyəcək və o, əvvəlki görünüşünü saxlayacaq.

Məlum oldu ki, son illər İçərişəhərdə Qala divarı üzərində aparılan bütün bərpa işlərinə bu sahədə ən aparıcı ekspertlər cəlb olunub. Burada yeni aşkar olunmuş tarixi abidə - hamam yüksək keyfiyyətlə bərpa olunur, unikal strukturu qorunur. Təmir zamanı hamamdan tapılan ağac parçası bu memarlıq abidəsinin yaşını müəyyən etmək üçün Almaniyaya göndərilib. Heç bir yeni əlavə yoxdur, yalnız köhnə pilləkənlər və qübbələr yenilənib. Əvəz olunan bütün daşlar da əvvəlki dövrə uyğundur. Binanın içərisində saxlanan tarixi elementləri orijinal formada görməyə imkan verəcək konservasiya işləri aparılır. Bərpa və yenidənqurma işləri başa çatdıqdan sonra burada açıq havada muzey yaradılacaq və ziyarətçilər orta əsrlərə aid abidənin gözəlliyini daha yaxından seyr edəcəklər.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğunda görülən işlərlə tanışlıq zamanı demişdir:

"İçərişəhərdə hansısa bir bərpa, təmir işinin aparılması nəzərdə tutulubsa, bu işləri başlamamışdan əvvəl biz ictimaiyyətə geniş şəkildə məlumat verməliyik... Narahat olan insanları çox yaxşı başa düşürəm. Belə hallarla, belə yalanlarla üzləşməmək üçün biz gərək özümüz bütün informasiyanı dolğun şəkildə ictimaiyyətə təqdim edək. İşlər başlamamışdan əvvəl təqdim edək ki, belə işlər görülməlidir, niyə görülməlidir, necə görülməlidir. O zaman hər şey də yaxşı olacaq. Ona görə bir daha deyirəm, bir daşa da ziyan dəyməməlidir. İçərişəhərimiz gözəldir, bizim sərvətimizdir, bundan sonra biz onu qoruyub saxlayacağıq, gələcək nəsillərə eyni şəkildə təhvil verəcəyik".

Xalqımız əmin ola bilər ki, Azərbaycan memarlığının və mədəniyyətinin nadir incisi olan İçərişəhər dövlət səviyyəsində qorunur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycan "Bir kəmər, bir yol" layihəsinin cazibə mərkəzinə çevrilib

*Əvvəli 1-ci səh.*

Belə ki, Çindən gələn malların Avropaya daşınması üçün Azərbaycanda mükəmməl infrastruktur yaradılıb. Ölkəmizin Qazaxıstanın Aktau limanından yükləri daşımaq üçün 260 gəmidən ibarət güclü donanması var. Eyni zamanda, bu yüklərin boşaldılması və yola salınması üçün Ələtdə beynəlxalq əhəmiyyətli liman tikilib. Limandan yüklərin Avropa ölkələrinə daşınması üçün Bakı-Tbilisi-Qars dəmir yolu fəaliyyət göstərir.

Xüsusi vurğulayaq ki, ölkəmiz həm də "Bir kəmər, bir yol" layihəsinin ilk siyasi dəstəkçilərindən olub. Azərbaycanla yanaşı, Türkiyə də layihəni dəstəkləyən keçid ölkəsidir. Həmin layihənin icrası dünya ölkələrinin diqqət mərkəzindədir. Bu da səbəbsiz deyil. Çünki Çin hazırda dünyada Amerikadan sonra ən çox məhsul istehsal edən ölkədir. Onun sürətli inkişafı yaxın gələcəkdə Amerikanı bu sahədə geri qoyacağına şübhə yeri qoymur.

37 dövlət və hökumət başçısının iştirak etdiyi 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda Azərbaycana maraq böyük idi. Çünki ölkəmizin coğrafi mövqeyi, yaradılan mükəmməl infrastruktur bu layihənin reallaşmasına önəmli töhfə verir. Prezident İlham Əliyev forumda "Bir kəmər, bir yol" layihəsinin istifadəsində ölkəmizin oynayacağı rolun əhəmiyyətini vurğulayaraq demişdir: "2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmiryol xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O, eyni zamanda, qitələri birləşdirir, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu "Şərq-Qərb nəqliyyat dəhlizi"nin mühüm hissəsidir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisini tamamlamaq üçün tərəfdaşlarımızla bizə çoxlu vaxt tələb olundu və bu gün bu dəmir yolu Avrasiyada nəqliyyatda çox mühüm rol oynayır.

Azərbaycanın sərmayə yatırdığı daha bir əhəmiyyətli nəqliyyat layihəsi Şimal-Cənub dəhlizidir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edirlər. Buna görə də müasir infrastrukturun yaradılmasına yatırdığımız investisiyalar yalnız iqtisadi potensialımızın artırılmasına və bizim dost, tərəfdaş və qonşularımıza xidmət göstərməyimizə kömək etmir, bu, həm də ticarət, turizm, nəqliyyat sahələrində nadir imkan yaradır və xalqları, ölkələri birləşdirir. Ölkələr bir-birinə bağlanır və bu, sülh və sabitlik amalına xidmət edir. Beləliklə, Azərbaycan müasir nəqliyyat infrastrukturuna malik vacib tranzit ölkəyə çevrilir".

Trilyon dollarlıq dəyəri olan adıçəkilən layihənin məqsədi Çində istehsal edilən malların dünya bazarına rahat çıxarılmasına hesablanıb. Bu layihəni Amerikadan başqa bütün dövlətlər dəstəkləyir. O cümlədən Avropa ölkələri, ABŞ-ın təzyiqlərinə baxmayaraq, layihənin həyata keçməsi üçün siyasi dəstəyini əsirgəmir. Çünki bu, hər iki tərəf üçün sərfəlidir. Çin böyük istehsalçı olmaqla bərabər, həm də böyük istehlakçıdır. Elə bu səbəbdən Avropa ölkələri layihənin icrasına maraq göstərir və ona siyasi dəstək verir. Avropa da maraqlıdır ki, milyarddan çox əhalisi olan, böyük istehlakçılara malik Çin bazarına öz mallarını göndərsin.

Dünya ölkələrinin layihəyə marağının əsas səbəbi isə Çinin yürütdüyü incə və bütün tərəfləri qane edən siyasətdir. Çin digər ölkələrə öz mənafeyi üçün siyasi, iqtisadi, hərbi təzyiq göstərmir, məqsədinə çatmaq üçün qarşılıqlı fayda gətirən əməkdaşlığa üstünlük verir. Yəni hər iki tərəfin qazanması ilə razılaşır. ABŞ isə öz mənafeləri üçün hətta ən yaxın müttəfiqlərinə belə lazım gəldikdə təzyiq göstərir. Artıq dünya bununla barışmaq istəmir. İndi bütün ölkələr öz mənafeləri uğrunda siyasi və iqtisadi mübarizə aparır. Məsələn, Amerikanın yaxın müttəfiqi olan 17 ərəb ölkəsi "Yeni İpək yolu" layihəsində iştirak etmək üçün Çinlə müqavilə bağlayıb. Bu dövlətlər adından sənədi Çin-Ərəb Reformu və İnkişaf Fondu imzalayıb. Varlı ərəb ölkələri hər iki tərəfə fayda gətirən ticarət anlaşmasına üstünlük verir. Onu da vurğulayaq ki, Avropanın bu layihənin reallaşmasında marağı Çininkindən az deyil. Qeyd etdiyimiz kimi, Çin böyük istehsalçı olmaqla yanaşı, həm də böyük istehlakçıdır. Bu fürsəti əldən qaçırmamaq üçün Avropanın aparıcı ölkələri - Almaniya, Fransa və Böyük Britaniya Çinlə bərabər layihənin icrasında fəal iştirak edir.

Hazırda Asiyadan Avropaya yüklərin çox hissəsi dəniz yolu - Süveyş kanalı vasitəsilə daşınır. Əvvəllər bu marşrutla daşınan yüklərin nəqliyyat xərcləri baha başa gəldiyi üçün istehsalçı və alıcılara sərf etmir, narazılığa səbəb olurdu. Lakin bir-biri ilə ciddi rəqabət aparan gəmiçilik şirkətləri bu vəziyyətdən çıxmaq üçün bir sıra tədbirlər həyata keçirdilər. Onlar daşınan malların maya dəyərini aşağı salmaq üçün iritonnajlı, daha sürətli gəmilərdən istifadə etməyə başladılar. Nəticədə yükdaşımaların maya dəyəri 3 dəfə aşağı düşdü. Hazırda 21 min kilometr məsafəni 30-35 sutkaya qət etməklə bir konteyneri sifarişçilərə 850 dollara çatdırmaq mümkündür.

Rusiya isə bu istiqamətdə daşınan yüklərin bir hissəsinin öz ərazisindən keçməsini istəyir. Bu məqsədlə Çin və digər Asiya ölkələrinə Transsibir marşrutundan istifadəni təklif edərək onun daha sərfəli marşrut olduğunu sübut etməyə çalışır. Yeri gəlmişkən qeyd edək ki, şimal qonşumuzun təklif etdiyi marşrut dəniz yolu ilə Süveyş kanalından keçən marşrutdan 10 min kilometr qısadır. Amma hazırda Asiyadan Avropaya daşınan yüklərin cəmi 1 faizi Rusiya ərazisindən tranzit olunur. Rusiya isə bu rəqəmi 10-15 faizə çatdırmaq niyyətindədir. Məqsəd ənənəvi marşrutla daşınan 250 milyard dollarlıq yükün bir hissəsinin öz ərazisindən tranzitinə nail olmaqdır. Əgər bu istək baş tutarsa, daşımalardan Rusiya ildə milyardlarla dollar qazana bilər.

Lakin şimal qonşumuz bununla da kifayətlənmək fikrində deyil. O, Çinlə danışıqlar apararaq ikinci Transsibir dəmir yolunun çəkilməsinə də nail olmaq istəyir. Ən maraqlısı budur ki, Rusiya Çinə ənənəvi Süveyş kanalı marşrutu əvəzinə yüklərin Şimal Buzlu okeanı ilə daşınmasını da təklif edir. Bu marşrut isə il boyu işləmir. Bu səbəbdən Rusiya Çinlə birgə elmi tədqiqatlar aparmaqla həmin marşrutdan il boyu istifadə etməyin mümkün olduğunu sübut etməyə çalışır. Şimal Buzlu okeanı marşrutunun Süveyş kanalı marşrutundan üstün cəhəti odur ki, malları bu yolla Çindən Avropaya ənənəvi marşrutdan 10 gün tez çatdırmaq mümkündür. Bu, ticarətdə xüsusi önəm daşıyan haldır. Onu da bildirək ki, Misir də gözləmə mövqeyini tutmayıb. Hiss edəndə ki Süveyş kanalının yükləri tez keçirmək imkanı getdikcə məhdudlaşır, ikinci kanalın tikintisinə start verib.

İndi Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun əhəmiyyətini qeyd etmək üçün onun texniki imkanlarına diqqət yetirək. Hazırda Çindən İngiltərə, Fransa, Almaniya kimi ölkələrə yükdaşıma müddəti təxminən 45-62 gündür. BTQ isə həmin yükləri 12-15 gün arasında Avropaya çatdırmaq imkanına malikdir. Bundan başqa, dəmir yolu ilə yüklərin daşınmasının maya dəyəri də aşağıdır. Qeyd edilən faktor, sözsüz ki, BTQ-yə yaxın zamanlarda marağın artacağını təmin edəcək.

Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini artıran növbəti hadisə isə Azərbaycan Prezidenti İlham Əliyevin, İran Prezidenti Həsən Ruhaninin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə "Şimal-Cənub nəqliyyat dəhlizi"nin yaradılması barədə qərar qəbul olunmasıdır. Bu yeni transmilli layihənin istifadəyə verilməsi Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətini daha da artıracaq. Yəni Şimaldan və Cənubdan gələn yüklər BTQ dəhlizi vasitəsilə Asiya və Avropa ölkələrinə daşına biləcək. Bu isə BTQ-nin əhatə dairəsinin daha da genişlənməsi və yük dövriyyəsinin artması deməkdir.

Hazırda bu nəqliyyat dəhlizinin öz ölkələrinin ərazisindən keçməsi üçün gərgin mübarizə gedir. Yüklərin Qazaxıstandan Azərbaycan üzərindən Avropaya daşınması ən sərfəli marşrutdur. Ölkəmiz də öz milli maraqları naminə bu dəhlizdən daha çox yüklərin daşınması üçün tərəfdaş ölkələrlə danışıqlar aparır. Məqsəd bu marşrutdan yüklərin sərfəli və vahid tariflə daşınmasına nail olmaqdır. Bu, iqtisadi rəqabətdə qalib gəlməyin ən doğru yoludur.

Ölkəmizin bu sahədə ən böyük rəqibi isə Rusiyadır. Rusiya çalışır ki, həm Transsibir yolu ilə, həm də Qazaxıstandan keçən yüklər dəmir yolu vasitəsilə Rusiya üzərindən Avropaya daşınsın. Düzdür, bu, ilk baxışdan iqtisadi rəqabət kimi görünsə də, bunun siyasi dividendləri var. Heç kəsə sirr deyil ki, belə nəqliyyat dəhlizlərinə sahib olan ölkələrin beynəlxalq aləmdə siyasi nüfuzu da artır.

Azərbaycan regionda yeganə ölkədir ki, onun İpək yolu üzərindən keçən yükləri daşımaq üçün mükəmməl infrastrukturu var. Əvvəlcədən qeyd etdiyimiz kimi, Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycan bu işləri artıq həyata keçirmişdir. Türkiyə də bu işdə bizə böyük dəstəkçidir. Qardaş ölkə bu dəhlizi Avropa ilə birləşdirmək üçün körfəzin altında dəmiryol xətti çəkib. İstəkləri isə gələcəkdə körfəzin altından daha bir dəmiryol xətti çəkməkdir. Bu, Azərbaycandan Türkiyəyə gedən nəqliyyat dəhlizinin yükdaşıma imkanını bir neçə dəfə artıracaq. Belə olan halda ölkəmiz "Bir kəmər, bir yol" layihəsinin cazibə mərkəzinə çevriləcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Dövlət Gömrük Komitəsinin sədri "Qırmızı Körpü" gömrük postunda mövcud vəziyyətlə tanış olub



Aprelin 29-da Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postunda mövcud vəziyyətlə tanış olub.

DGK-nın mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, S.Mehdiyev öncə "Qırmızı Körpü" gömrük-sərhəd keçid məntəqəsinin yaxınlığında inşa edilən Ticarətin Asanlaşdırılması Mərkəzinə baxış keçirib.

Xatırladaq ki, bu mərkəz Avropa İttifaqının maliyyə dəstəyi, BMT-nin İnkişaf Proqramı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində yaradılıb.

Komitə sədrinə məlumat verilib ki, Ticarətin Asanlaşdırılması Mərkəzinin ümumi sahəsi 12 hektardır. Mərkəzin inzibati binasının ümumi sahəsi 1590 kvadratmetr təşkil edir. Binanın birinci mərtəbəsində müvafiq dövlət qurumları "bir pəncərə" prinsipi əsasında xidmət göstərir. İkinci mərtəbədə isə inzibati otaqlar və yeməkxana yerləşir. Mərkəzin ərazisində, həmçinin yük avtomobillərinin yoxlanılması üçün "X-ray" qurğusu yerləşdirilib, nəqliyyat vasitələrinin yüklənməsi və boşaldılması üçün xüsusi yer və yataqxana da var.

Sonra Dövlət Gömrük Komitəsinin sədri Azərbaycanın Gürcüstanla dövlət sərhədində yerləşən "Qırmızı Körpü" gömrük postunda gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi barədə müvafiq tapşırıqların icra vəziyyətini öyrənib. Bu istiqamətdə görülmüş tədbirlərin səmərəliliyi barədə DGK-nın sədrinə məlumat verilib.

Komitə sədri dövlət sərhədindən keçən şəxslərin və nəqliyyat vasitələrinin daha asan və sürətli keçidinin təmin edilməsi, eləcə də sərhədkeçmə prosesinin sürətli, şəffaf və maneəsiz şəkildə həyata keçirilməsinə dair tapşırıq və tövsiyələrini verib.

# Heydər Əliyev Fondu mayın 10-dək bölgələrdə konsertlər təşkil edəcək

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum günü və Heydər Əliyev Fondunun 15 illiyi münasibətilə bir sıra bölgələrdə konsertlər təşkil olunacaq.

AZƏRTAC xəbər verir ki, tədbirlərə mayın 2-də Ağdam rayonundan start veriləcək. Konsert proqramında tanınmış incəsənət xadimlərinin ifasında milli musiqi və muğam nümunələri təqdim ediləcək.

Mayın 3-də Şəkidə, mayın 4-də Gəncədə, mayın 5-də Xaçmazda, mayın 6-da Şamaxıda, mayın 7-də isə Lənkəran və Naxçıvanda konsertlər keçiriləcək.

Konsertlərdə muğam, folklor, aşıq, estrada və pop musiqi nümunələri, müxtəlif rəqslər təqdim olunacaq.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Energetika naziri Pərviz Şahbazov aprelin 29-da Şirvan şəhərində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Şirvan filialının inzibati binasında vətəndaşları qəbul edib.

Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Şirvan, Hacıqabul, Salyan və Neftçala rayon sakinləri iştirak edib. Vətəndaşların müraciətləri elektrik enerjisinə görə yaranan borcun silinməsi, elektrik sayğacının quraşdırılması, qaz sayğacının sındırılması ilə əlaqədar yazılmış cərimənin silinməsi, təbii qazın illik istehlak limitinin artırılması, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, işlə təminat və digər məsələlərlə bağlı olub.

Energetika naziri hər bir vətəndaşın müraciətini dinləyib, qaldırılan məsələlərin araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün nazirliyin struktur bölmələrinə müvafiq tapşırıqlar verib.

Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Aprelin 29-da DGK-nın sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Qazax şəhərində vətəndaşları qəbul edib.

Qəbulda Qazax, Tovuz və Ağstafa rayonlarının sakinlərinin, eləcə də bu bölgədə məskunlaşan məcburi köçkünlərin yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən malların idxal və ixracı, bununla əlaqədar sənədləşmə qaydaları, gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı DGK-nın sədri S.Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

* * *

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev aprelin 29-da İsmayıllı rayonunda vətəndaşları qəbul edib.

Qəbulda İsmayıllı, Ağdaş, Ağsu və Kürdəmir rayonlarında yaşayan vətəndaşlar iştirak ediblər. Müraciət edənlərin əksəriyyəti həmin ərazilərdə məcburi köçkün kimi məskunlaşan şəxslər olub. Onların müraciətləri, əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluq, status, kommunal xidmətlər, vahid aylıq müavinətin təyin edilməsi və digər məsələlərlə bağlı olub.

Qəbulda iştirak edən vətəndaşların müraciətlərinin bir qismi yerində həll edilib.

Dövlət komitəsinin sədri müraciətlərdə qaldırılan məsələlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib.

* * *

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov sakinlərin müraciətləri və təklifləri ilə yerindəcə tanış olmaq üçün Kürdəmir rayonunda vətəndaş qəbulu keçirib.

Qəbulda Kürdəmir rayonu ilə yanaşı, Ucar, Göyçay rayonlarından olan sakinlərin də müraciətlərinə baxılıb. Qəbul zamanı komitənin fəaliyyət istiqamətləri üzrə, o cümlədən daşınmaz əmlakın qeydiyyatı, dövlət əmlakının özəlləşdirilməsi, hərraclarda iştirak, dövlət əmlakının icarəyə götürülməsi kimi müraciətlərə baxılıb. Həmçinin torpaqların texniki parametrlərinin və koordinatlarının müəyyənləşdirilməsi, torpaqların təyinatının dəyişdirilməsi, ünvan məsələləri və bu sahədə bölgələrdə əhalini maraqlandıran digər məsələlərlə bağlı suallar cavablandırılıb.

Struktur bölmələrinin rəhbərlərinin də iştirak etdiyi qəbulda vətəndaş müraciətləri həssaslıqla dinlənilib, məsələlərin bir çoxu yerində həllini tapıb. Hər bir vətəndaş müraciətinə diqqətlə yanaşan K.Həsənov müraciətlərin dəqiqliklə araşdırılması və qaldırılan məsələlərin həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib. Eyni zamanda, vətəndaşların müxtəlif təklifləri qeydə alınıb.

***AZƏRTAC***

# Ramazan ayının başlanması ilə əlaqədar fətva verilib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Şurası mübarək Ramazan ayının başlanması ilə əlaqədar fətva verib.

AZƏRTAC xəbər verir ki, fətva aprelin 29-da QMİ-də Şeyxülislam Allahşükür Paşazadənin sədrliyi ilə keçən toplantıda verilib.

Fətvada bildirilir ki, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura ilahi rəhmət və bərəkət qapılarının açıldığı müqəddəs Ramazan ayının başlanması münasibətilə xalqımızı və dünya müsəlmanlarını təbrik edir, Allah-Təaladan dua və ibadətlərimizin qəbul olunmasını diləyir.

"Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şamaxı Astrofizika Rəsədxanasının 2019-cu il üzrə hesablamalarına görə, ölkə ərazimizin üfüqünə uyğun olaraq Ramazan ayının 1-i Miladi tarixlə mayın 6-na təsadüf edir. Ay göründüyü andan etibarən Ramazani-şərif başlayır və niyyət gecəsi mayın 5-dən 6-na keçən gecəyə düşür.

İnsanların düşünüb ibrət almaları, Haqq yoluna hidayət olunmaları üçün göndərilən Qurani-Kərim məhz Ramazan ayının mübarək Qədr gecəsində nazil olub. Qadir Allah "Bəqərə" surəsinin 183-cü ayəsində Ramazanda oruc tutmağın müsəlmanlara vacib olduğunu bəyan edərək belə buyurub: "Ey iman gətirənlər. Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) pis əməllərdən çəkinəsiniz!"

Oruc insanı səbrə, nəfsi tərbiyə etməyə, paklıq, mərhəmət və xeyirxahlığa, habelə ehtiyac sahiblərinin halını anlamağa təşviq edən bir ibadətdir. Bu ibadətin fəzilətindən bəhs edən Peyğəmbər (s) buyurub: "Kim Ramazan ayının orucunu iman edərək və savabını yalnız Allahdan gözləyərək tutsa, keçmiş günahları bağışlanar". Rəsulullahın (s) "kiçiklərinizə mərhəmət və böyüklərinizə hörmət göstərin" tövsiyəsinə əsasən ilk olaraq valideynlərə ehtiram göstərmək, uşaq evlərinə, yaşlılara, ehtiyac sahiblərinə maddi və mənəvi dəstək olmaq, kimsəsizlərin kimsəsi olmaq orucluqda Allah-Təalanın rizasını qazanmaq üçün bir fürsətdir. Cəhənnəm qapılarının bağlandığı və ilahi məğfirətin bol olduğu Ramazanda Qurani-Kərimi oxuyub mənasını dərk etməyə çalışmaq, qohum-qonşuya baş çəkmək, əbədi aləmə köç edənlərin ruhunu yad etmək, insanların sevinc və qəminə şərik olmaqla cəmiyyətdə dostluq və qardaşlığı təbliğ etmək dinimizdə böyük savablardan hesab olunur.

QMİ bu il də AMEA Şamaxı Astrofizika Rəsədxanası ilə birgə Ramazanın başlanğıcı, bu ayın namaz vaxtları və gündəlik dualarını, eləcə də bayram tarixini müəyyənləşdirən xüsusi təqvim tərtib edib. Qazılar Şurası və Elmi-Dini Şura bəyan edir ki, dindarlarımız başqa mənbələrdən əldə edilən, məzhəblərarası təfriqə və vaxt ayrı-seçkiliyi yaradan təqvimlərdən heç bir vəchlə istifadə etməsinlər. Din xadimləri belə halların qarşısını almağa çalışmalıdırlar. Ümid edirik ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyətlərinin müvafiq qurumları da bu məsələdə öz köməyini əsirgəməyəcək, məhz QMİ tərəfindən tərtib edilən Ramazan təqviminin kütləvi informasiya vasitələrində, o cümlədən sosial mediada təbliğinə və yayılmasına nəzarət edəcəklər.

Qazılar Şurası və Elmi-Dini Şura mübarək Ramazan ayı ərzində iftar vaxtından əvvəl ehsan adı ilə açılan süfrələrdə iştirak etməyin böyük günahlardan hesab olunduğunu diqqətə çatdıraraq bildirir ki, belə məclislərdə iştirak edən din xadimləri barəsində ciddi tədbirlər görüləcək.

Qazılar Şurası tövsiyə edir ki, bu əziz ayda dinimizdə müqəddəs sayılan şəxslərlə yanaşı, Vətənimizin azadlığı və torpaqlarımzın bölünməzliyi uğrunda canlarından keçən 20 Yanvar, Qarabağ və Aprel şəhidlərinin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, xütbə və moizələrdə vətənpərvərliyin təbliğinə xüsusi diqqət yetirilsin.

İnşallah, Fitr bayramı (Şəvval ayının 1-i) Ayın üfüqi ərazimizdə görünməsinə əsasən iyunun 5-nə təsadüf edəcək. Azərbaycan xalqı və dövləti bu böyük və əziz bayramı hər il yüksək səviyyədə qeyd edir. Dövlətimizin dini dəyərlərə, dindarlara və din xadimlərinə diqqət və qayğısı respublikamızda dövlət-din münasibətlərinin yüksək səviyyəsinin təzahürüdür. Dövlət başçısı tərəfindən əhalinin rifahının daha da yüksəlməsi naminə həyata keçirilən sosial-iqtisadi islahatları və dinimizin təbliğ etdiyi humanizm prinsiplərinə uyğun olaraq azadlıqdan məhrum edilmiş yüzlərlə şəxsin əfv olunması haqqında imzalanan sərəncamı ölkə dindarları böyük minnətdarlıq və rəğbətlə qarşılayırlar.

Orucluğun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Fitrə zəkatı Yaradana şükrün bir ifadəsi və canın sədəqəsi hesab olunur. Maddi baxımdan imkanı olan müsəlmanın, ailəsinin hər bir üzvü üçün, fitrə zəkatı çıxarıb imkansızlara və ehtiyac sahiblərinə verməsi vacibdir. Qazılar Şurası hazırkı şəraitə uyğun olaraq fitrə zəkatının adambaşına 5-10 manat dəyərində verilməsini məsləhət görür.

Ramazan duaların qəbul olunduğu bir aydır. Bu ayda müstəqil Azərbaycanımızın banisi mərhum Heydər Əliyevi rəhmətlə yad edir, dövlətçiliyimizin möhkəmlənməsi və inkişafı, xalqımızın tərəqqisi naminə əzmlə çalışan dövlətimizin başçısı İlham Əliyev cənablarına Allah-Təaladan xeyir-dualar diləyirik. Uca Rəbbimizdən arzumuz budur ki, ölkəmizdə və dünyada sülhü, əmin-amanlığı bərqərar eləsin, xalqımıza işıqlı və firavan gələcəyi, gələn Ramazan ayında iftarlarımızı doğma Qarabağımızda qeyd etməyi nəsib eləsin. Allah oruc və namazlarınızı qəbul etsin. Amin.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şura Ramazan ayı ilə əlaqədar verilən fətvanın ölkənin bütün məscidlərində və ibadət yerlərində din xadimləri tərəfindən oxunmasını məqsədəuyğun hesab edir",- deyə fətvada vurğulanır.

# Akademik Arif Paşayev Beynəlxalq Mühəndislik Akademiyasının "ALMAZ" nişanı ilə təltif olunub







Aprelin 26-da Moskva şəhərində Beynəlxalq Mühəndislik Akademiyasının (BMA) 2018-ci ildəki fəaliyyətinə dair ümumi yığıncaq keçirilib.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Mühəndislik Akademiyasının prezidenti akademik Boris Qusev 15 ölkədən BMA-nın üzvü olan 266 alimin iştirak etdiyi yığıncaqda hesabat məruzəsi ilə çıxış edib.

Azərbaycan Mühəndislik Akademiyasının (AMA) vitse-prezidenti, akademik Əhəd Canəhmədov Ümumi Yığıncağın iştirakçılarının yekdil qərarı ilə Mandat Komissiyasının sədri seçilib. Akademik Əhəd Canəhmədov AMA-nın 2018-ci ildəki fəaliyyəti barədə ətraflı məlumat verib.

Yığıncaq ərəfəsində Moskvada nəşr olunan "Инженерная Газета"nın aprel nömrəsində Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, Beynəlxalq Mühəndislik Akademiyasının vitse-prezidenti akademik Arif Paşayevin "Vəzifələri kosmik yüksəkliyə qaldırarkən" ("Поднимая задачи до космических высот") sərlövhəli geniş məqaləsi dərc olunub.

Qəzetin həmin nömrəsi yığıncaq iştirakçılarına paylanılıb. Müəllif məqalədə ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi çərçivəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi, həmçinin sənayenin və aqrar sahələrin dirçəldilməsi istiqamətində və digər transregional layihələrin icrası məsələlərindən ətraflı bəhs edib. Akademik Arif Paşayevin məqaləsi tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Ümumi Yığıncaqda BMA-nın Prezidentlər Şurasının İdarə Heyətinin qərarı ilə akademik Arif Paşayevin Beynəlxalq Mühəndislik Akademiyasının "ALMAZ" nişanı ilə təltif olunduğu elan edilib. Bildirilib ki, görkəmli alim bu mükafata elm və təhsildəki uğurlarına, mühəndislik elminin, Azərbaycan Mühəndislik Akademiyasının inkişafındakı, materialların dağılmadan nəzarət metodunun sənayedə tətbiqindəki, böyük beynəlxalq layihələrin işlənilməsi və həyata keçirilməsindəki xüsusi xidmətlərinə görə layiq görülüb.

Yığıncaqda, həmçinin Azərbaycandan BMA-ya 1 həqiqi və 2 müxbir üzv də seçilib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Vüqar Əhmədov**<br>"Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən | 02 | **Mingəçevir,** Ağdaş |
| **Ramil Yusifov**<br>"Azərişıq" ASC-nin sədrinin müavini | 02 | **Yevlax,** Ucar |
| **Ramin Quluzadə**<br>Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri | 03 | **Şamaxı,** Qobustan |
| **Əli Abdullayev**<br>Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini | 03 | **Ağsu,** İsmayıllı |
| **Rüstəm Usubov**<br>Baş prokurorun birinci müavini | 11 | **Mingəçevir,** Yevlax, Bərdə |
| **Kəmaləddin Heydərov**<br>Fövqəladə hallar naziri | 14 | **Göyçay** |
| **Rəfail Mirzəyev**<br>Fövqəladə hallar nazirinin birinci müavini | 14 | **Kürdəmir** |
| **Etibar Mirzəyev**<br>Fövqəladə hallar nazirinin müavini | 14 | **Ucar** |
| **Fikrət Məmmədov**<br>Ədliyyə naziri | 16 | **Lənkəran** |
| **Vilayət Zahirov**<br>Ədliyyə nazirinin müavini | 16 | **Astara** |
| **Toğrul Musayev**<br>Ədliyyə nazirinin müavini | 16 | **Lerik** |
| **Arzu Rəhimov**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 16 | **Quba,** Qusar |
| **Mayıl Şahverdiyev**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 16 | **Xaçmaz,** Şabran |
| **Yusif Mirzəyev**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 16 | **Siyəzən,** Xızı |
| **Əkbər Hacıyev**<br>ARDNŞ-nin "Azəriqaz" İB-in baş direktoru | 16 | **Gəncə,** Kəlbəcər |
| **Ramil İsgəndərov**<br>ARDNŞ-nin "Azəriqaz" İB-in baş direktorunun müavini | 16 | **Goranboy,** Xocalı |
| **Ruslan Əliyev**<br>ARDNŞ-nin "Azəriqaz" İB-in baş direktorunun müavini | 16 | **Samux,** Göygöl |
| **Ramiz Rzayev**<br>Ali Məhkəmənin sədri | 17 | **Gəncə** |
| **Hikmət Mirzəyev**<br>Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 17 | **Göygöl** |
| **Şahin Yusifov**<br>Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 17 | **Samux** |
| **Namiq Əsgərov**<br>Baş prokurorun müavini | 17 | **Lənkəran,** Masallı |
| **Sahil Babayev**<br>Əmək və əhalinin sosial müdafiəsi naziri | 17 | **Astara** |
| **Anar Kərimov**<br>Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 17 | **Masallı** |
| **Mətin Kərimli**<br>Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 17 | **Lənkəran** |
| **Azad Rəhimov**<br>Gənclər və idman naziri | 17 | **Masallı,** Yardımlı |
| **İntiqam Babayev**<br>Gənclər və idman nazirinin müavini | 17 | **Lənkəran,** Astara |
| **İsmayıl İsmayılov**<br>Gənclər və idman nazirinin müavini | 17 | **Lerik** |
| **Şahin Mustafayev**<br>İqtisadiyyat naziri | 17 | **Tovuz,** Şəmkir |
| **Niyazi Səfərov**<br>İqtisadiyyat nazirinin müavini | 17 | **Ağstafa,** Qazax |
| **Sahib Məmmədov**<br>İqtisadiyyat nazirinin müavini | 17 | **Gədəbəy** |
| **Oqtay Şirəliyev**<br>Səhiyyə naziri | 17 | **İsmayıllı,** Qəbələ |
| **Elsevər Ağayev**<br>Səhiyyə nazirinin müavini | 17 | **Şamaxı,** Qobustan |
| **Rahim Əliyev**<br>Səhiyyə nazirinin müavini | 17 | **Göyçay** |
| **Qorxmaz Hüseynov**<br>"Azərsu" ASC-nin sədri | 17 | **Beyləqan,** Xocavənd |
| **Teyyub Cabbarov**<br>"Azərsu" ASC-nin sədrinin birinci müavini | 17 | **İmişli** |
| **Etibar Məmmədov**<br>"Azərsu" ASC-nin sədrinin müavini | 17 | **Füzuli** |
| **Vilayət Eyvazov**<br>Daxili işlər nazirinin birinci müavini | 18 | **Şəki,** Qax, Zaqatala, Balakən, Oğuz, Qəbələ |
| **Məleykə Abbaszadə**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 20 | **Lənkəran,** Lerik |
| **Namiq Babayev**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 20 | **Masallı,** Astara |
| **Mübariz Qurbanlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 21 | **Tovuz,** Şəmkir |
| **Səyyad Salahlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini | 21 | **Ağstafa,** Qazax |
| **Gündüz İsmayılov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 21 | **Gədəbəy** |
| **Əhməd Əhmədzadə**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 22 | **Kürdəmir,** Ucar |
| **Rafiq Aslanov**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 22 | **Göyçay** |
| **Zakir Quliyev**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 22 | **Ağdaş** |
| **Zakir Qaralov**<br>Baş prokuror | 24 | **Gəncə,** Samux, Göygöl |
| **İnam Kərimov**<br>Kənd təsərrüfatı naziri | 24 | **Lənkəran,** Astara |
| **İlham Quliyev**<br>Kənd təsərrüfatı nazirinin müavini | 24 | **Masallı,** Yardımlı |
| **Seyfəddin Talıbov**<br>Kənd təsərrüfatı nazirinin müavini | 24 | **Cəlilabad** |
| **Əbülfəs Qarayev**<br>Mədəniyyət naziri | 24 | **Şamaxı,** Qobustan |
| **Vaqif Əliyev**<br>Mədəniyyət nazirinin birinci müavini | 24 | **İsmayıllı,** Qəbələ |
| **Rafiq Bayramov**<br>Mədəniyyət nazirinin müavini | 24 | **Ağsu** |
| **Ceyhun Bayramov**<br>Təhsil naziri | 24 | **Ağstafa,** Qazax |
| **Firidun Qurbanov**<br>Təhsil nazirinin müavini | 24 | **Şəmkir,** Gədəbəy |
| **Mikayıl Cabbarov**<br>Vergilər naziri | 24 | **Göyçay,** Kürdəmir, Ağdaş, Ucar, Zərdab |
| **Sahib Ələkbərov**<br>Vergilər nazirinin müavini | 24 | **Qusar,** Quba, Xaçmaz, Şabran |
| **Hicran Hüseynova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 24 | **Cəlilabad,** Masallı |
| **Sədaqət Qəhrəmanova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 24 | **Biləsuvar,** Cəbrayıl |
| **Rövşən Rzayev**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 24 | **Zaqatala,** Balakən |
| **Sabir Əhmədov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 24 | **Şəki,** Qax |
| **Fuad Hüseynov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 24 | **Oğuz,** Qəbələ |
| **Saleh Məmmədov**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 24 | **Tərtər,** Bərdə |
| **Əvəz Qocayev**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 24 | **Goranboy** |
| **Ramil Usubov**<br>Daxili işlər naziri | 25 | **Bərdə,** Ağdam, Tərtər, Ağcabədi, Laçın, Şuşa, Goranboy, Xocalı, Naftalan, Füzuli, Beyləqan, Xocavənd |
| **Oruc Zalov**<br>Daxili işlər nazirinin müavini | 25 | **Sumqayıt,** Abşeron, Qobustan, Qubadlı, Zəngilan |
| **Səfər Mehdiyev**<br>Dövlət Gömrük Komitəsinin sədri | 25 | **Balakən** |
| **İsmayıl Hüseynov**<br>Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 25 | **Zaqatala** |
| **Əsgər Abdullayev**<br>Dövlət Gömrük Komitəsi sədrinin müavini | 25 | **Qax** |
| **Pərviz Şahbazov**<br>Energetika naziri | 27 | **Astara,** Lənkəran |
| **Samir Vəliyev**<br>Energetika nazirinin müavini | 27 | **Masallı,** Yardımlı |
| **Elnur Soltanov**<br>Energetika nazirinin müavini | 27 | **Lerik** |
| **Muxtar Babayev**<br>Ekologiya və təbii sərvətlər naziri | 31 | **İsmayıllı,** Qəbələ |
| **Firdovsi Əliyev**<br>Ekologiya və təbii sərvətlər nazirinin müavini | 31 | **Oğuz** |
| **Rauf Hacıyev**<br>Ekologiya və təbii sərvətlər nazirinin müavini | 31 | **Şəki** |
| **Kərəm Həsənov**<br>Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 31 | **Şəki** |
| **Rafiq Cəlilov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 31 | **Qax** |
| **Rüstəm Şahbazov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 31 | **Zaqatala** |

**Qeyd: Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.**

# Gənclər narkomaniyaya "yox!" deyirlər



"Müasir dünyada cəmiyyəti narahat edən probelmlər içərisində ən mürəkkəbi və faciəvi nəticələrə gətirib çıxaran narkotikaya aludəçilikdir".

Bu fikirlər Gəncə Dövlət Universitetində "Narkotik vasitələrin, psixotropik maddələrin qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizə" mövzusunda keçirilən konfransda səsləndirilmişdir.

Narkomaniyanın acı fəsadlarından bəhs edən "Bəla" adlı qısametrajlı filmin nümayişindən sonra universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva "Ölümə aparan yol: narkomaniya" mövzusunda məruzə ilə çıxış etmişdir. Məruzəçi qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək bununla bağlı 26 avqust 1996-cı il tarixli fərman imzalamışdır. Həmin fərmana əsasən, 2000-ci ilə qədərki dövr üçün narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Proqramı hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Bundan başqa 18 iyun 1999-cu ildə Milli Məclis tərəfindən "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" qanun qəbul edilmişdir. Bəşəri bəla olan narkomaniyanın sərhəd tanımadan genişlənməsi ölkəmiz üçün həlli vacib məsələlərdən birinə çevrildiyindən, dövlətimiz onun kökünün kəsilməsi istiqamətində gedən beynəlxalq mübarizəyə qoşularaq bu sahədə həyata keçirilən işlər çərçivəsində zəruri qanunvericilik bazası yaratmışdır. Ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyev isə bu istiqamətdə 13 fərman, 54 sərəncam imzalamışdır. Bundan başqa, narkomaniyaya qarşı 36 qanun qəbul edilmişdir.

Konfransda Gəncə şəhər icra hakimiyyəti başçısının müavini Vəfa Abbasovanın da çıxışı maraqla dinlənilmişdir. Məruzəçi qeyd etmişdir ki, narkomaniya bəşəriyyət üçün bəla olan, irqindən, dinindən və yaşından asılı olmayaraq bütün xalqları düşündürən ən ağrılı problemlərdəndir. Silah, insan alveri, insan orqanlarının alveri kimi təhlükəli bəlalarla eyni səviyyədə qorxulu olan, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniyaya qarşı mübarizə hazırda bütün bəşəriyyəti düşündürən bəlalardandır. Bu problemin həllinə xidmət edən mühüm məsələlərdən biri söz yox ki, yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsidir. Narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılma təhlükəsini nəzərə alaraq, bir çox ölkələrdə "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edilmişdir.

Sonra Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin qərb regional şöbəsinin baş əməliyyat müvəkkili, polis mayoru Rafiq Əhmədov çıxış edərək diqqətə çatdırmışdır ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Bu problem cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir.

Konfransda Gəncə şəhər 6 saylı poliklinikanın şöbə müdiri Tükəzban Məmmədova, şəhər gənclər və idman baş idarəsinin əməkdaşı Xəyalə Qurbanova, universitetin baş müəllimi Nərgiz Rəsulova, tarix-coğrafiya fakültəsinin 4-cü kurs tələbəsi Çinarə Hümbətova və başqaları çıxış edərək narkomaniyanın acı nəticələrindən danışmış, bu sahədə Azərbaycanda həyata keçirilən tədbirlər nəticəsində əldə olunan uğurlardan söhbət açmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Hava Hücumundan Müdafiə bölmələrinin taktiki-xüsusi təlimi keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) Hava Hücumundan Müdafiə (HHM) hissə və bölmələrinin taktiki-xüsusi təlimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlim zamanı həyəcan siqnalı ilə qaldırılan bölmələr təyin edilmiş rayonlara çıxarılıb. Şərti düşmənin hava hədəflərinin aşkarlanması və verilən tapşırığa əsasən qərar qəbuletmə prosesinə uyğun qərargahların fəaliyyətləri məşq etdirilib.


## "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC nəqliyyat vasitələrinin ehtiyat hissələri və təmir işlərini satın alınması üçün

### *kotirovka sorğusu elan edir*

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC nəqliyyat vasitələrinin ehtiyat hissələri və təmir işlərini kotirovka üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar 012-493-47-83 (3133) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər 6 may 2019-cu il saat 17:00-a kimi qəbul edilir.

Təklif zərflərinin açılışı 7 may 2019-cu il saat 12:00-da keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, Səbail rayonu, Xaqani, 82, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin inzibati binası



## BİLDİRİŞ

"Azərbaycan"qəzetinin 13 fevral, 27 fevral, 30 mart və 16 aprel 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC daxili vəsaiti hesabına əyləc qəlibləri, süzgəclər, akkumulyator batareyaları və yağların satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən 3-cü LOT-da (akkumulyator batareyalarının satın alınması) tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 13 may 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 14 may 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767(2249).**

***Tender komissiyası***




# Sürət, həyəcan və möhtəşəm Azərbaycan Qran-prisi

## Ölkəmiz dünyanın bir nömrəli avtomobil yarışında növbəti dəfə nümunə göstərdi

Aprelin 26-28-də Bakı planetin bir nömrəli avtomobil yarışına 4-cü dəfə evsahibliyi etdi. "Formula-1" dünya çempionatının 4-cü mərhələsi olan SOCAR Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı. Gərgin keçən mübarizə sürət həvəskarlarının böyük marağına səbəb oldu. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı 67 ölkədən çoxlu sayda azarkeş paytaxtımızda tribunalardan izlədi.





### Valtteri Bottasın liderliyi davam edir

Azərbaycan Respublikasının Dövlət himni səsləndikdən sonra "Formula-1" Azərbaycan Qran-prisinin final mərhələsi başladı. Hər birində iki pilot olmaqla komandaların bir gün əvvəl keçirilən sıralama yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə "Mercedes" komandasının üzvləri Valtteri Bottas və Luis Hamilton dayandılar. Digərləri isə Sebastyan Fettel ("Ferrari"), Maks Ferstappen (Red Bull Racing Honda"), Serxio Peres ("Force India") və s. pilotlar idilər.

Pilotlar ümumu məsafəsi 306 kilometr və 20 çətin döngəsi olan trekdə 51 dövrə vurdular. Təhlükəsizliyin yüksək səviyyədə təmin olunduğu, müasirliyi ilə tarixiliyini özündə birləşdirən Bakı Şəhər Halqası ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edirdi. 30 mindən çox tamaşaçının yarışları yerində izləməsi üçün hər cür şərait yaradılmışdı.

Maraqlı və gərgin keçən yarışın yekununda "Mercedes" komandasının üzvü Valtteri Bottas 1 saat 31 dəqiqə 52,942 saniyəlik nəticə ilə "Formula-1" SOCAR Azərbaycan Qran-prisinin qalibi oldu. İkinci yeri "Mercedes" komandasının digər üzvü Luis Hamilton, üçüncü yeri isə "Ferrari" komandasının sürücüsü Sebastian Fettel tutdular.

"Mercedes" komandası bu qələbə ilə "Formula-1" üzrə dünya çempionatları tarixində yeni rekorda imza atdı. Belə ki, ilk dəfə olaraq ardıcıl dörd Qran-pridə bir komandanın hər iki pilotu yürüşləri ilk iki pillədə başa vurdu.

Bakıdakı 4-cü mərhələdən sonra Valtteri Bottas xallarının sayını 87-ə çatdıraraq liderliyini davam etdirir. Komanda yoldaşı Luis Hamilton ondan 1 xal geri qalır. "Ferrari" komandasının almaniyalı pilotu Sebastian Fettel 52 xalla üçüncü, "Red Bull Racing Honda"nın hollandiyalı pilotu Maks Ferstappen 51 xalla dördüncü, "Ferrari"nin Monakodan olan sürücüsü Şarl Lekler isə 47 xalla beşinci pillədə qərarlaşıblar.

### Mübarizəni erkən dayandıranlar

"Formula-1" Azərbaycan Qran-prisi eyni zamanda favorit göstərilən pilotların yarışı erkən başa vurması ilə də yadda qalıb. Belə ki, "Renault" komandasının sürücüsü Daniel Rikkardo və "Toro Rosso"nun pilotu Daniil Kvyat eyni anda yarışla vidalaşıb. Belə ki, 34-cü dövrədə D.Rikkardo ötmə əməliyyatını yerinə yetirərkən sürət çox yüksək olduğu üçün dönə bilməyib. Buna görə D.Kvyat da dönməni həyata keçirə bilməyib. Daha sonra bolidi geri hərəkət etdirən D.Rikkardonun bolidi D.Kvyatın bolidinə çırpılıb. Nəticədə hər iki bolid zədələndiyi üçün pilotlar mübarizəni erkən başa vurublar.

### "Formula-2"də qalib müəyyənləşdi

Aprelin 28-də Bakıda "Formula-2" üzrə ikinci yarışa da yekun vurulub. "DAMS" komandasının pilotu kanadalı Nikolas Latifi birinci olub. "Charouz"un amerikalı sürücüsü Xuan Manuel Korrea yarışı ikinci, "Campos Racing"in ingiltərəli pilotu Cek Aitken isə üçüncü pillədə başa vurublar.

"Formula-2"də ilk yarış günündə isə "Campos Racing" komandasının pilotu Cek Aitken birinci, "ART Grand Prix"dən Nik de Vries ikinci, "MP Motorsport"un üzvü Cordan Kinq isə üçüncü yeri tutmuşdular.

### Sürətsevərlərin pilotlarla görüşləri

"Formula-1"in Azərbaycan nümunəsi yüksək səviyyədə hazırlığı, qonaqpərvərliyi ilə dünyanı heyran etməklə yanaşı, paytaxtımızda yarışan ən məşhur pilotların qəlbində dostluq, anlaşma, sevgi məşəli yandırıb. Yarış müddətində sürətsevərlər öz qəhrəmanları - "Mercedes", "Haas", "Williams", "Toro Rosso", "Mercedes", "Renault" və s. komandaların pilotları ilə avtoqraf sessiyalarında görüşdülər. Bu, azarkeşlər üçün əsl hədiyyə oldu.

Beləliklə, Azərbaycan bu yarışa yüksək səviyyədə evsahibliyi etməklə bir daha sübut etdi ki, beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas ünvanlardan biridir.

### Dünya ulduzlarının ifasında konsertlər

"Formula-1" Azərbaycan Qran-prisinin həyəcanlı və maraqlı yarışlarından sonra azarkeşlər axşam saatlarında "Baku Crystal Hall"a toplaşdılar. Dünya ulduzlarının enerjili və coşqulu ifaları konserti dinləməyə gələnlərə unudulmaz gecələr yaşadıb.

"Formula-1" Azərbaycan Qran-prisinin ilk musiqili qonağı britaniyalı müğənni Cessi Cey azarkeşlərə unudulmaz anlar bəxş edib. Aprelin 28-də isə dünyanın ən tanınmış reperlərindən olan Kardi Bi avtoidman azarkeşlərinin qarşısında səhnəyə çıxıb. O, "Baku Crystall Hall"da "Formula-1" həvəskarları üçün ən məşhur ifalarını səsləndirib.

Bununla da Azərbaycan Qran-prisi göstərdi ki, "Formula-1" təkcə yarış deyil, həm də istirahət üçün unudulmaz möhtəşəm tədbirdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Lüis HAMİLTON: "Ardıcıl 4 dubl daxili gücümüzün ən yaxşı sübutudur"



"Mercedes" komandasının pilotu Lüis Hamilton Bakıda finişə ikinci çatıb və çempionatda şəxsi hesabdakı liderliyini komanda yoldaşı Valtteri Bottasa təhvil verib.

Yarış başa çatdıqdan sonra Lüis Hamilton deyib: "Valtterini təbrik edirəm, o yürüşü fantastik keçirdi, bir dəfə də olsun səhv etmədi və layiqli qələbə əldə etdi. Əslində, hər şey hələ təsnifat yürüşü vaxtı həll olunmuşdu.

Bu, bizim komanda üçün bütün illər ərzində ən yaxşı startdır. O, ola bilər ki, hər bir əməkdaşın səyi sayəsində qazanılıb. "Mercedes"in mütəxəssisləri praktiki olaraq fasiləsiz rejimdə çalışırlar, hər il uğur qazanmaq cəhdləri daha da artır. Ardıcıl 4 dubl bizim daxili gücümüzün ən yaxşı sübutudur. Bu komandanın bir üzvü olduğum üçün taleyimə minnətdaram. Bu gün yürüş əla alındı, biz startdan finişədək hücum etdik. Mənim xoşuma gəldi".

## Nigar ARPADARAİ: "Fəxr edirik ki, hər şey gözəl keçdi"



"Çox hazırlaşdıq. Fəxr edirik ki, hər şey gözəl keçdi. Yarış çox yaxşı keçdi, Valtteri Bottas qələbə qazandı. Heç bir problem olmadan, normal şəraitdə yarış keçdi.

Bu günlər ərzində çox gözəl əyləncə proqramları oldu. Artıq yarış başa çatdı. Hər zaman bu məqamda kədərlənirik".

Bunu jurnalistlərə Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) marketinq və kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai "Formula-1" SOCAR Azərbaycan Qran-prisinin bitməsindən sonra təəssüratlarını bölüşərkən deyib. Bu barədə "SalamNews" xəbər verir.

N.Arpadarai qeyd edib ki, "yarışlar ümumilikdə çox böyük maraqla qarşılandı. Nəticələrdən razıyıq. Bakını ən gözəl surətdə göstərə bilirik, bu il də belə oldu. Şəhərin mərkəzində belə bir yarış keçiririk, Qran-pri təşkil olunur, əməkdaşlarımız əlindən gələni edir ki, yarışlar daha da maraqlı olsun".

Yolların nəqliyyatın hərəkətinə açılmasından danışan Nigar Arpadarai bildirib ki, aprelin 30-da bütün yollar açılacaq.

## Valtteri BOTTAS: "Biz əla nəticələr əldə edirik"



Pouldan start götürən Valtteri Bottas ("Mercedes") "Formula-1" SOCAR Azərbaycan Qran-prisinin qalibi oldu və şəxsi hesabda liderliyi yenidən ələ aldı.

Yürüş bitdikdən sonra Valtteri Bottas deyib: "Hərçənd liderlər qrupunda o qədər də çox hadisə baş vermirdi, amma yürüş mürəkkəb idi. Axı Lüis daim mənə pressinq göstərirdi. Mən səhv edə bilməzdim və vəziyyəti daim nəzarət altında saxladım. Şadam ki, dama-dama bayrağı gördüm və finişə birinci çatdım.

Bu uğur bizim üçün çox əhəmiyyətlidir. Komanda əla nəticələr əldə edir. Mən həmişə komanda yoldaşlarıma deyirəm: fəxr edirəm ki, bu komandada çıxış edirəm. Biz hamımız əla işləyirik. Mənim beşinci dəfə qələbə qazanmağım əladır. Hər şey möhtəşəm şəkildə davam edir".

## Serxio PERES: "Bütün yarışı son həddə sürdüm"

"Racing Point" komandasının sürücüsü Serxio Peres bildirib ki, bütün yarış ərzində avtomobilini son həddə sürüb.



Meksikalı sürücü yarışa 5-ci yerdən başlayıb və startda Ferstappeni keçərək, 4-cü yerə yüksəlib. Lakin daha sonra bolidin tempi olmadığı üçün yarışı 6-cı yerdə bitirib. Bu barədə F-1.az saytı xəbər verir.

